


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 90 (21.500)

18 may 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Ulu öndər Heydər Əliyev və Naxçıvan” mövzusunda dəyirmi masa

*Naxçıvan Dövlət Universitetində “Ulu öndər Heydər Əliyev və Naxçıvan” mövzusunda dəyirmi masa keçirilib.*

Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, ümummilli liderimiz Heydər Əliyev böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz liderdir. O, bütün həyatı boyu vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyev yüksək vəzifələrdə çalışdığı illərdə qədim diyarı daim diqqət mərkəzində saxlayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövrdə Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlib. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb.

Saleh Məhərrəmov deyib ki, ümummilli liderimizin 1990-cı il iyulun 22-də Naxçıvana möhtəşəm qayıdışı, 1991-ci il sentyabrın 3-də xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə ölkəmiz üçün mühüm bir hadisəyə çevrilib.

Universitetin müəllimi, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarlı, fəlsəfə elmləri doktoru, professor Məhəmməd Hacıyev çıxış edərək bildiriblər ki, ölkəmizə ikinci dəfə rəhbərliyi illərində də ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəməyib. Naxçıvanda isə 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti fəal, yaradıcı surətdə davam etdirilib. Bu quruculuq və inkişaf konsepsiyası sonrakı illərdə bir idarətmə modeli kimi tarixə düşüb. Bütün bu misilsiz nailiyyətlərin hamısı böyük dövlət xadimi Heydər Əliyev siyasi kursunun yüksək səviyyədə, ardıcıl və dönmədən davam etdirilməsi nəticəsində qazanılıb. Bu möhtəşəm təlim sabahkı uğurlarımızın da etibarlı qarantıdır.

Tədbir diskussiyalarla davam edib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Biznes Mərkəzində növbəti maarifləndirici tədbir keçirilib



Yeni qəbul olunmuş normativ-hüquqi aktlar və qarşıya qoyulmuş vəzifələr haqqında sahibkarların maarifləndirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində tədbir keçirib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov açıb. Bildirib ki, bu gün muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas istiqaməti əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, əhalinin rifah halının yaxşılaşdırılması, yeni istehsal müəssisələri yaratmaqla məşğulluq probleminin əsaslı həlli ilə yanaşı, əhalinin tələbatının maksimum səviyyədə daha keyfiyyətli yerli istehsal məhsulları hesabına ödənilməsindən ibarətdir.

Bunun üçün daxili bazarın tələbatına uyğun məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır.

Bu gün muxtar respublikada 362 növdə, 1128 çeşiddə məhsul istehsal olunur. Həmçinin 343 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə yaradılan şəraitin bəhrəsidir.

Tədbirdə nazirliyin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Mircavid Tağızadənin “Lisenziyalaşdırma sahəsində qəbul edilmiş normativ-hüquqi aktlar, müasir elektron ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi haqqında”, İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin müdiri Emin Zeynalovun “İnvestisiya qoyuluşu ilə bağlı qəbul edilmiş yeni normativ-hüquqi aktlar haqqında”, “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Namiq Əhmədovun “Dövlət müəssisə və təşkilatları tərəfindən mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına malların satın alınması istiqamətində sahibkarların qarşısında duran vəzifələr haqqında”, nazirliyin Hüquq sektorunun müdiri Aysel Qədirzadənin “Malın mənşə ölkəsini təsdiq edən sertifikatların verilməsi qaydaları haqqında”, Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vaqif Rzayevin “Yerli istehsal məhsullarının müşayiətedici (sertifikatlar) sənədlər əsasında satışı, analoji idxal məhsullarının idxalına məhdudiyyətlər tətbiq etməklə yerli istehsal məhsullarının satışının daha da artırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi haqqında” mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, cəmiyyət inkişaf etdikcə qəbul olunan yeni normativ-hüquqi aktlarla sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanların tanış olması, onlara düzgün istiqamət verilməsi bu sahədə yeni uğurlar qazanılmasının başlıca səbəblərindəndir. Son illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olanlarla görüşlərin təşkili, onların problemlərinin həll edilməsi, müasir elektron ödəniş xidmətlərinin tətbiqi, nağdsız hesablaşmaların genişləndirilməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması, prioritet hesab edilən layihələrin sahibkarlara təqdimatının keçirilməsi və digər məsələlərlə bağlı köməkliklərin göstərilməsi istiqamətində görülən kompleks işlər diqqət mərkəzində saxlanılıb. İqtisadiyyatın liberallaşdırılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması, iqtisadiyyata investisiyaların cəlb olunması məqsədilə həyata keçirilən islahatlar öz müsbət nəticələrini verib.

Tədbirdə nazirliyin Regionun inkişafı və dövlət proqramları sektorunun müdiri Seymur Cəfərov 2016-cı ildə prioritet hesab edilən layihələri sahibkarlara təqdim edib. Dövlət əmlakının idarə olunması, özəlləşdirilmə və cəmiyyətlərlə iş şöbəsinin müdiri Polad Heydərzadə özəlləşdirilməyə açıq elan edilmiş müəssisələr haqqında məlumat verib.

Sonra sahibkarların sualları cavablandırılıb.

✍ **Muxtar MƏMMƏDOV**

*Muxtar respublikada işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı, tibbi və sosial reabilitasiyası sahəsində işlər bu ilin aprel ayında da davam etdirilmişdir.*

## Muxtar respublikada əhalinin sosial müdafiəsi gücləndirilir

Belə ki, işaxtaran vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 272 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 1 nəfər kvota yerlərinə göndərilmiş, 10 nəfər peşə kurslarına cəlb edilmiş, 4 nəfər isə kəndlərdə istifadəyə verilən xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. Ötən ay muxtar respublikada keçirilən əmək yarmarkalarında 180 nəfərə peşə və ixtisasına uyğun işə qəbul üçün göndəriş verilmişdir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələblərinə uyğun peşə kursları da davam etdirilmişdir. Ötən ay təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər və elektrik montyoru peşələri üzrə kursları 39 nəfər bitirmiş, qadın bərbəri peşəsi üzrə yeni kurs açılmışdır. Hazırda xalçaçılıq, aşpaz köməkçisi və daşduz üzərində oyma peşələri üzrə kurslar davam etdirilir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün distant dərslər keçilir. Aprel ayında təlimlərə 130 uşaq cəlb olunmuş, sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikanın muzeyləri ilə keçilən interaktiv dərslərdə iştirakları təmin edilmişdir. Həmçinin mərkəzdə görmə məhdudiyyəti olan şəxslər üçün nəşr olunan “Könül işığı” adlı brayl jurnalının növbəti nömrəsi audiokitabxana xidmətinin kataloquna daxil edilmiş, diqqət zəifliyi olan və hiperaktiv uşaqların reabilitasiyası üçün təlim-bərpa otağı, fərdi, ailə və uşaq psixoloji məsləhət xidməti yaradılmışdır. Sağlamlıq imkanları məhdud 39 məktəbli uşağın valideynin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmiş, bu kateqoriyadan olan uşaqlar arasında şeir müsabiqəsi keçirilmişdir.

Aprel ayında tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 454 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 17 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 34 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 45 uşağın müalicəsi təşkil edilmişdir. Həmçinin 27 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 25 nəfər texniki reabilitasiya vasitəsi ilə təmin olunmuş, məhdud fiziki imkanlı 109 şəxsə səyyar protez-ortopedik bərpa xidməti göstərilmiş, 8 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 8 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublika üzrə 219 nəfər sığortaolunana avtomatlaşdırılmış qaydada yaşa görə əmək pensiyası təyin olunub

Sığorta-pensiya sistemində aparılan davamlı islahatların məntiqi nəticəsi olaraq ölkəmizdə pensiya təyinatının avtomatlaşdırılması kimi mühüm prosesə başlanılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 1 noyabr 2014-cü il tarixdən yaşa görə əmək pensiyası hüququ yaranmış vətəndaşların avtomatlaşdırılmış qaydada pensiya təyinatını uğurla həyata keçirir. Muxtar respublika ərazisində yaşayan və yaşa görə əmək pensiyası hüququ qazanmış hər bir şəxs heç bir sənəd toplamadan, vaxt itirmədən fondun Pensiya şöbəsində yaradılmış avtomatlaşdırılmış pensiya təyinatı xidmətinə – *550-59-79* nömrəsinə zəng edərək yalnız şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməklə bu xidmətdən istifadə edə bilər. Bu xidmət dərhal Dövlət Sosial Müdafiə Fondunda yaradılmış xüsusi proqram təminatına daxil edilir və həmin göstəricinin sistemdə düzgünlüyü təsdiqləndiyi halda bir neçə dəqiqə ərzində vətəndaşa 1 yanvar 2006-cı il tarixədək olan iş stajı və 1 yanvar 2006-cı il tarixdən ödədiyi məcburi dövlət sosial sığorta haqlarından avtomatlaşdırılmış qaydada əmək pensiyasının təyinatı aparılır və təyin olunan pensiyanın məbləği ilə öz plastik bankomat kartını ala biləcəyi bankın filialının ünvanı bildirilir. Hal-hazırda ilkin mərhələdə avtomatlaşdırılmış pensiya təyinatı yaşa görə əmək pensiyası hüququ yaranmış şəxslərə tətbiq edilir. Bu xidmət gələcəkdə əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranmış şəxslərə tətbiq olunacaqdır.

Fond tərəfindən sığortaolunanlara avtomatlaşdırılmış qaydada pensiya təyinatına başlanan gündən 2016-cı ilin may ayınadək Naxçıvan şəhəri üzrə 78 nəfərə, Babək rayonu üzrə 10 nəfərə, Şərur rayonu üzrə 43 nəfərə, Ordubad rayonu üzrə 35 nəfərə, Culfa rayonu üzrə 32 nəfərə, Şahbuz rayonu üzrə 14 nəfərə, Kəngərli rayonu üzrə 4 nəfərə, Sədərək rayonu üzrə 3 nəfərə, ümumilikdə isə 219 nəfərə bu sistem vasitəsilə yaşa görə avtomatlaşdırılmış qaydada əmək pensiyası təyin olunub.

Artıq təqaüdlərin plastik kartlarla ödənilməsi tam tətbiq edilib, əmək pensiyaçıları yaşadığı ünvandan asılı olmayaraq, istənilən yerdə bankomat vasitəsilə öz pensiyalarını çox rahatlıqla ala bilirlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Aprel ayında muxtar respublikada 12 min 419 nəfər dəmir yolu nəqliyyatından istifadə etmişdir

Muxtar respublikanın dəmir yolu təsərrüfatında daşımaların təhlükəsizliyi və sərnişinlərin rahatlığı aprel ayında da diqqətdə saxlanılmış, qatarların fasiləsiz hərəkəti təmin olunmuşdur. Bu dövrdə ayrı-ayrı tikinti təşkilatlarına 6 min 840 ton müxtəlif təyinatlı yük daşınmış, 12 min 419 sərnişin dəmir yolu nəqliyyatından istifadə etmişdir.

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları dəmir yollarının istismar vəziyyətini mütəmadi yoxlamış, baş və stansiya yollarında lazımi təmir işləri görmüşlər. Xidmətin səviyyəsinin yüksəldilməsi məqsədilə profilaktik tədbirlər də gücləndirilmiş, Culfa lokomotiv və vaqon depolarında lokomotivlər 5 dəfə texniki baxışdan keçirilmiş, 2 elektrovoz və 1 sərnişin vaqonu cari təmir edilmiş, 1 vaqonda əsaslı təmir işləri aparılmışdır. Bundan başqa, Naxçıvan stansiyasına 640 metr fiber-optik kabel xətti çəkilmiş, 4 optik modem və 3 PSM tipli aparat quraşdırılmaqla yeni xətt aparat zalı istismara verilmişdir.

Aprel ayında Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad dəmiryol sərnişin vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında yenidənqurma, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarında isə əsaslı təmir işləri davam etdirilmişdir.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

### 18 may Beynəlxalq Muzeylər Günüdür

# Muzeylər mədəni irsimizin qorunması və təbliğində mühüm rol oynayır



Dövlət Bayrağı Muzeyi

***YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının qərarına əsasən 1978-ci ildən başlayaraq hər il mayın 18-i “Beynəlxalq Muzeylər Günü” kimi qeyd edilir.***

Muzeylər xalqın milli özünəməxsusluğu, tarixi keçmişini təcəssüm etdirən, milli-mənəvi dəyərləri qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır. Ölkəmizdə ilk dəfə 1896-cı ildə böyük yazıçı və dramaturqumuz Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmışdır. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 1924-cü il 30 oktyabr tarixli qərarı ilə Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi yaradılmış, 1926-cı ildə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət mülkiyyətinə götürülmüşdür. 1925-ci ildə Naxçıvanda yaradılan “Naxçıvanı Tədqiq və Təbbö” Cəmiyyətinin bu muzeyin zənginləşdirilməsində xüsusi rolu olmuşdur.



Naxçıvan Dövlət Tarix Muzeyi

Ölkəmizdə muzeylər şəbəkəsinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Ulu öndərimiz həmişə muzey işinə böyük önəm vermiş, Azərbaycana rəhbərliyinin birinci dövründə muzeylərin yaradılması sahəsində mühüm tədbirlər həyata keçirmişdir. Bunun nəticəsi idi ki, qısa zaman ərzində Azərbaycanın 50-dən çox rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. 1969-cu ilə qədər Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, ümummilli liderimizin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlifprofilli muzey yaradılmışdır.

Dahi rəhbərimizin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra isə mədəniyyət sahəsi, o cümlədən muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. 2000-ci ildə qəbul edilən “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını müəyyən etmiş və bunlarla bağlı münasibətləri tənzimləmişdir.

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə uğurlu addımlar atılır, böyük layihələr həyata keçirilir. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 2007-ci il 6 mart tarixli Sərəncamı və 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi Tədbirlər Planı” bu sahənin hüquqi bazasının formalaşdırılmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişləndirilməsinə səbəb olmuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada yeni muzeylər yaradılmış, muzeylər müasir tələblər əsasında qurulmuş və eksponatlarla zənginləşdirilmişdir. 2012-ci ildə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, 2013-cü ildə “Gəmiqaya” Tarix-Bədii Qoruğu və muzeyi üçün bina istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında” 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən, Naxçıvan şəhərində daha bir muzey yaradılmışdır. 2014-cü ildə Şahbuz rayonundakı Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmişdir. 2015-ci ildə isə Naxçıvan şəhərində Xatirə Muzeyi, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları qapıların tamaşaçıların üzünə açmışdır. Həmçinin ötən il Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən qalada bərpa işləri aparılmışdır. Qalada muzey fəaliyyət göstərəcəkdir. Hazırda muxtar respublikada 1 rəsm qalereyası və 28 müxtəlifprofilli muzey fəaliyyət göstərir, muzeylərdə 110 mindən çox eksponat mühafizə olunur.

Göründüyü kimi, bu gün qədim diyarımızda geniş muzeylər şəbəkəsi yaradılmışdır. Muxtar respublika əhəmiyyətli muzeylərlə yanaşı, tarix-diyarşünaslıq muzeyləri, ev-muzeyləri, xatirə muzeyləri, muzey kompleksləri mədəni irsimizin qorunması və təbliğində, gənc nəslin mənəvi və estetik tərbiyəsində, elmi dünyagörüşünün zənginləşməsində böyük əhəmiyyətə malikdir. Muxtar respublikanın bütün bölgələrində muzeylərin fəaliyyət göstərməsi bura gələnlərin Naxçıvanın zəngin tarixi və mədəniyyəti haqqında ətraflı məlumat almalarına yardımçı olur.



“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi

Gənc nəslin muzeylərlə tanışlığı onların keçmişimiz və bu günümüz barədə dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına və milli dəyərlərimizə sədaqət ruhunda böyüməsinə xidmət edir. Buna görə də muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqəli işinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Sərəncama əsasən, muxtar respublikada məktəb-muzey şəbəkələri yaradılmış, Azərbaycanın, Naxçıvanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimiz ilə bağlı distant dərslərin keçirilməsinə başlanılmışdır. 2016-cı ilin ötən dörd ayı ərzində muzeylərimizdə 145 açıq dərs keçirilmiş və 200-dən çox təhsil müəssisəsinin iştirakı ilə 8 distant dərs təşkil edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən keçirilmiş 5 açıq dərsdə isə muxtar respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, tarix, turizm və otelçilik ixtisasları üzrə təhsil alan tələbələr iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə kollektiv gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin, dövlətçilik ənənələrinin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına daha geniş imkanlar açmışdır. Muxtar respublikanın muzeylərini fərqləndirən cəhətlərdən biri də burada ziyarətçilərə pulsuz muzey xidmətinin göstərilməsidir. Bu ilin aprel ayında muzeylərimizi 23 min 534 nəfər ziyarət etmişdir ki, bunlardan da 3208-i xarici ölkə vətəndaşıdır.



Ordubad şəhərindəki Məhəmməd Tağı Sidqinin ev-muzeyi

Hazırda muxtar respublikanın muzeylərində 300-dən çox muzey işçisi çalışır. Son illər muzey işçilərinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmələri onların əməyinə verilən yüksək qiymətin ifadəsidir. Muzey işçilərinin peşə hazırlığının səviyyəsinin yüksəldilməsi məqsədilə keçirilən seminar-treninqlər, dəyirmi masalar isə işin düzgün təşkilinə kömək edir.

Muzeylər keçmişimizi bu günə daşıyan, qoruyan, saxlayan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsidir. Muzey şəbəkələrinin yaradılması mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirməklə keçmişlə bu günümüz arasında körpü rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərinin həyatlarını, yaradıcılıqlarını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir”.***

*Aprel ayında mədəniyyət müəssisələrində qarşıya qoyulmuş vəzifələrin icrası diqqətdə saxlanılmış, əlamətdar və tarixi günlərlə bağlı 27 tədbir və sərgi təşkil olunmuşdur. “Muzey günləri” çərçivəsində ekskursiyalar davam etdirilmiş, muxtar respublikanın 40-dan çox nazirlik, komitə və baş idarələrinin kollektivlərinin, eləcə də ali təhsil müəssisələrinin tələbələrinin muzeylərlə tanışlığı təmin edilmişdir.*

## Mədəniyyət müəssisələri işini günün tələblərinə uyğun qurur

Ümumilikdə, ötən ay muzeyləri 3208-i əcnəbi vətəndaş olmaqla, 23 min 534 nəfər ziyarət etmişdir. Ötən ay keçirilmiş distant dərsə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta-ixtisas və peşə məktəbi qoşulmuşdur. Həmçinin gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə 10 muzeydə 44 açıq dərs, kitabxanalarda yığıncaqlar keçirilmiş, mədəniyyət və turizm şöbələrinin musiqi kollektivləri tərəfindən dislokasiya olunmuş hərbi hissələrdə konsert proqramları təşkil edilmiş, Şərur rayonunun Aşağı Yaycı kəndində “Xalq yaradıcılığı günü” keçirilmişdir.

Əhaliyə göstərilən kitabxana-informasiya xidmətlərini müasir səviyyəyə çatdırmaq məqsədilə şəhər və rayon mərkəzi kitabxana sistemlərinin işçiləri üçün M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında təcrübə məşğələsi keçirilmiş, yerlərə ezamiyyələr təşkil olunmuş və lazımi metodiki köməklik göstərilmişdir. Uşaqların dünyagörüşünün və mütaliyə marağının artırılması da diqqətdə saxlanılmış, 34 “Nağıl günləri”, 11 “Mütaliə günü” keçirilmişdir. Həmçinin “Azərbaycan Kinosu Günü” layihəsi çərçivəsində rayonlarda müxtəlif filmlər nümayiş etdirilmiş, milli kinomuzun unudulmaz simalarından Nəsibə Zeynalovanın, Ramiz Mirişlinin və Əbülfəz Məmmədovun xatirə gecələri keçirilmişdir.

Gənc istedadların üzə çıxarılması da mədəniyyət müəssisələrinin qarşısında duran ən mühüm vəzifələrdəndir. Aprel ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar muxtar respublikanın uşaq incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında rəsm müsabiqəsi, eləcə də uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin muxtar respublika müsabiqəsi keçirilmişdir. Müsabiqədə 22 şagird rəsm, 173 şagird isə musiqi ixtisasları üzrə iştirak etmişlər. Ötən ay Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi-2016”-nın birinci mərhələsi keçirilmiş və 15 ifaçı iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na əsasən Naxçıvan Dövlət Filarmoniyasında “Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu” mövzusunda konfrans və konsert proqramı təşkil olunmuşdur. Bundan başqa, muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində keçirilən 9 konsert və 9 dərs saatı bəstəkarın yaradıcılığına həsr olunmuşdur.

Muxtar respublikanın turizm potensialının öyrənilməsi və təbliği sahəsində də işlər davam etdirilir. Belə ki, Şərur rayonunun Xanlıqlar kəndindəki “İmamzadə” tarixi abidəsinin bukleti hazırlanmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet saytlarının təkmilləşdirilməsi, “Naxçıvan Muxtar Respublikasının abidələr xəritəsi”nin, “Naxçıvan memarlıq abidələri” kataloqunun hazırlanması işləri davam etdirilmiş, kənd yaşıl turizminin inkişafı ilə bağlı 7 kənddə sakinlərlə maarifləndirici görüşlər keçirilmişdir. Bundan başqa, əcnəbi vətəndaşların muxtar respublikanın mədəniyyəti, incəsənəti və turizm imkanları haqqında məlumatlandırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində “Azərbaycan mədəniyyətinin inkişaf tarixi” mövzusunda mühazirə keçirilmiş, Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə IV kurs tələbələrinin Mədəniyyət və Turizm Nazirliyində və turizm xidməti obyektlərində təcrübə keçmələri təmin edilmişdir.

Aprel ayında Bakı şəhərində keçirilən XV Yubiley Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası uğurla təmsil olunmuş, sərgidə Naxçıvanın turizm imkanları, o cümlədən 6 yerləşdirmə obyekti haqqında materiallar nümayiş etdirilmiş, iştirakçılara reklam-informasiya materialları paylanılmış, turizm firmaları ilə görüşlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**



Yeni istehsal müəssisələri

## Naxçıvan Sənaye Kompleksində yüksəkkeyfiyyətli yerli inşaat materialları istehsal olunur

*Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər nəticəsində idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb.*

Yeraltı və yerüstü sərvətlərlə zəngin muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının mütəxəssisləri tərəfindən inşaat materialları istehsalı üçün xammal mənbələrinin müəyyən olunması məqsədilə geoloji axtarışlar aparılıb. Yataqlarda lazımi xammal aşkar olunduqdan sonra onun tərkibi Türkiyənin və Çin Xalq Respublikasının bu sahə üzrə ixtisaslaşmış laboratoriyalarında yoxlamadan keçirilib.

Laboratoriyalardan müsbət rəylər alındıqdan sonra Kəngərli rayonunun Böyükdüz massivində 2012-ci ildə sement zavodu tikilib istifadəyə verilib, 2014-cü ildə isə digər inşaat materialları istehsal ediləcək yeni zavodların tikintisinə başlanılıb. Yeni layihələrin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq, gips lövhələr, gips, əhəng və məsaməli beton istehsal olunacaq kompleksdə dünyada sement zavodları və onun bazasında digər inşaat materialları istehsal edən müəssisələri qurmaq sahəsində qabaqcıl təcrübəyə malik Almaniyanın "KHO", "Polysims", Danimarkanın "Flsm.dth" firmalarını soba, daşıyıcılar və üyüdücülərlə təmin edən Çin Xalq Respublikasının "Jiangsu Pengfei Group Co.LTD" və digər şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb gətirilib. İdxal olunan avadanlıqlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb.

Öz əhəmiyyətinə görə ən böyük layihələrdən olan Naxçıvan Sənaye Kompleksinin inşası "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının təcrübəli mütəxəssisləri və inşaatçıları tərəfindən həyata keçirilib. Burada istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati və iaşə xidməti binaları tikilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, hazır məhsulun daşınmasına da hərtərəfli şərait yaradılıb.

2015-ci il dekabrın 1-də muxtar respublikamızda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Sənaye Kompleksinin açılış mərasimində iştirak edib.

Sənaye kompleksində müasir avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir. İstehsal olunan məhsulların laborator müayinələri aparılır.

Ümumi sahəsi 9 hektar olan kompleksdə gips, gips lövhələr, əhəng və məsaməli beton istehsal edən zavodlar fəaliyyət göstərir. Müasir avadanlıqların quraşdırıldığı zavodlarda istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemləri yaradılıb. Kompleksin istifadəyə verilməsi ilə muxtar respublikada müvafiq tikinti materiallarına tələbatın yerli istehsal hesabına ödənilməsi təmin olunub. Bu müəssisənin fəaliyyətə başlaması daxili tələbatın ödənilməsi ilə yanaşı, yerli inşaat materiallarının ixracına da imkan verəcək.





Məsaməli beton istehsal edən zavodda yüksəkkeyfiyyətli məhsul istehsal olunur. Burada xammal kimi daş qumundan, əhəng, gips, sement və alüminium tozundan istifadə edilir. İnşaat sektorunda ən çox istifadə edilən bu tikinti materialları istənilən ölçüdə asanlıqla kəsilir, yüksək səviyyədə səs və istilik izolyasiyasına malikdir. Bundan əlavə, yüngül və zəlzələyə davamlı olan bu materiallar yanmaya qarşı beynəlxalq standartlara uyğundur. Müasir avadanlığın quraşdırıldığı zavodda il ərzində 150 min ton məsaməli beton istehsal olunacaq. Kompleksə daxil olan digər zavodlarda da yüksək şərait yaradılıb. Əhəng zavodunda istifadə olunan yerli xammal Qarabağlar mədənindən gətirilir. Burada hazırlanan məhsullardan inşaat sektorunda, kənd təsərrüfatında, kağız və şüşə istehsalında istifadə edilir. Sahəsi 4500 kvadratmetr olan zavodda ildə 36 min ton əhəng istehsalı nəzərdə tutulur.

Gips zavodunda istifadə olunan xammal isə Çalxanqala, Çeşməbasar, Xıncab və Böyükdüz zonalarından gətirilir. Burada istehsal olunan məhsullar məsaməli beton blokların, suvaq və üzləmə gipsinin, gips lövhələrin hazırlanmasında istifadə edilir. Zavodun illik istehsal gücü 40 min ton gipsdir.

Gips lövhə zavodunda da yüksək şərait yaradılıb. Xammal kimi isə gips, üzləmə kağızı və yapışqandan istifadə olunur. Müəssisədə istehsal olunan məhsullara inşaat sektorunda tələbat böyükdür. Bunu nəzərə alaraq zavodda ildə 2 milyon kvadratmetr gips lövhələrin hazırlanması həyata keçiriləcək.

Qeyd edək ki, müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatın yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılıb. Kompleksdə istehsal edilən məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, bu yerli inşaat materiallarının xarici bazarlara çıxarılmasına da imkan yaradacaq. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, yeni layihənin reallaşması ilə bu problem aradan qaldırılıb.

Yeni istehsal müəssisələri əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, müəssisədə çalışan işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunub. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

**Kərəm HƏSƏNOV**

---

*Ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyevin təşəbbüsü və böyük səyləri hesabına ictimai təsərrüfatlarda olan torpaqların özəlləşdirilməsinə başlanılması dövrün ən böyük və yaddaqalan hadisələrindən biri oldu. Bu prosesə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Gal və Şurud kəndlərindən start verildi. Görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi bu strategiya mərhələ-mərhələ həyata keçirildikcə insanlar görürdülər ki, bu layihə zamanın tələbidir.*

Jurnalist araşdırması

## Əkin atlasları torpaqlardan səmərəli istifadə olunmasına geniş imkanlar açır

### *Bəs bəzi yerlərdə torpaqlardan nə üçün düzgün istifadə edilmir?*

Sonrakı dövrlərdə davam etdirilən bu prosesin ilk mərhələsi 2000-ci ildə başa çatdırıldı. 205 kəndi, 132 kolxoz, sovxoz və birlikləri əhatə etməklə aparılan torpaq islahatları nəticəsində 72 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verildi. Muxtar respublikada yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, əkinçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi məhsul istehsalının artmasına və nəticə etibarı ilə ərzaq təhlükəsizliyinin təmin olunmasına istiqamətləndirilib. Bəs bu gün torpaq mülkiyyətçiləri bu qiymətli sərvətlərdən necə istifadə edirlər? Dövlətimizin iqtisadi siyasətinin dolğun formada, günün tələbləri səviyyəsində həyata keçirilməsində böyük məsuliyyət daşıyan torpaq mülkiyyətçilərinə, sahibkarlara aidiyyəti qurumlar tərəfindən hansı köməkliklər göstərilir?

Məlumat üçün bildirək ki, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən rayonların əkin atlasları hazırlanaraq müvafiq icra hakimiyyətlərinə göndərilib. Həmin atlaslarda hər bir bələdiyyənin torpaq xəritəsi, kənd təsərrüfatına yararlı torpaq sahəsinin qida maddələri ilə təminolunma kartoqramı və cədvəli öz əksini tapıb, atlasların bələdiyyələrə verilməsi tövsiyə olunub. Bu tədbirin hansı səviyyədə həyata keçirildiyini, torpaq mülkiyyətçiləri arasında maarifləndirici tədbirlərin necə aparıldığını öyrənmək məqsədilə muxtar respublikanın bir neçə rayonunda müşahidələr apardıq. Bələdiyyə sədrləri, kənd inzibati ərazi dairələri üzrə nümayəndələr, torpaq mülkiyyətçiləri ilə həmsöhbət olduq. İlk müşahidəmizi muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda apardıq. Məlumat üçün bildirək ki, rayonun ümumi ərazisi 87 min 226 hektardır. Bunun 42 min 150 hektarı dövlət, 30 min 862 hektarı bələdiyyə, 14 min 214 hektarı isə xüsusi mülkiyyətə daxildir. Torpaqlardan səmərəli istifadə edilməsi üçün həyata keçirilən tədbirlər əkin dövriyyəsinin genişlənməsinə səbəb olub və bu tədbirlər davam etdirilir.

Ərazidə şoranlaşmaqda olan, qrunt sularının üzə çıxması nəticəsində çəmənləşən, şoranlaşan örüş sahələri, istifadə olunmayan torpaqlar da vardır. Dağ və dağətəyi zonalarda torpaqların eroziyaya uğraması, düzən zonalarda isə müəyyən səbəblərdən şoranlaşma faktları mövcuddur.

Aidiyyəti qurumlar tərəfindən ərazidə olan eroziyaya uğramış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar müəyyən edilərək xəritələşdirilib, onların əkin dövriyyəsinə daxil edilməsi məqsədilə tədbirlər müəyyənləşdirilib. Kəndlərdə torpaq mülkiyyətçiləri arasında vaxtaşırı maarifləndirici tədbirlər keçirir, torpaqlardan düzgün istifadə qaydalarını izah edirlər. Şoranlaşmanın qarşısının alınması məqsədilə son aylarda Püsyan, Tumaslı, Diyadin, Alışar, Kərimbəyli, Dəmirçi, Danyeri, Xanlıqlar kəndlərində belə tədbirlər təşkil olunub.

Muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramına uyğun olaraq Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mütəxəssisləri ilə birlikdə rayonun kəndlərində meyvəçilik və tərəvəzçilik üçün daha əlverişli olan sahələr, o cümlədən sututarlara yaxın ərazilər, çay vadilərində istifadəsi mümkün olan, lakin müəyyən səbəblərdən istifadə edilməyən yerlər müəyyənləşdirilib və əkin dövriyyəsinə daxil olunması üçün işlər görülüb. İndiyədək 220 hektardan artıq belə torpaq sahəsi müəyyənləşdirilib və kəndlər üzrə elektron xəritələrin üzərinə köçürülüb.

Bir məsələni də qeyd edək ki, islahatlar zamanı bələdiyyələrə də gələcək perspektiv üçün kifayət qədər torpaq sahəsi ayrılıb. Bu torpaqlardan da əkinçilik üçün istifadə edən kəndlər var. Məsələn, rayonun Çomaxtur kəndində bələdiyyə fondunda olan 7 hektar sahə 14 nəfərlə müqavilə bağlanılaraq icarəyə verilib. Həmin torpaqlardan əkin atlasına uyğun istifadə edilməsi diqqətdə saxlanılır.

Ancaq rayona göndərilmiş əkin atlasında öz əksini tapan torpaq sahələrinin qida maddələri ilə təminolunma kartoqramına bəzi bələdiyyələrdə rast gəldik. Qənaətimiz belə oldu ki, bu kartoqramların verilmədiyi yaşayış məntəqələrində torpaqlardan dədə-baba qaydası ilə istifadə olunur. Bu isə müasir və mütərəqqi əkinçilik metodlarına uyğun deyil. Ona görə ki, əkinçiliklə məşğul olan bəzi gənclər torpağın dilini o qədər də yaxşı bilmirlər. Əkin atlası bu sahədə onlara yaxın köməkçi ola bilər.

Culfa rayonunda da torpaqlardan səmərəli istifadə olunması vəziyyəti qənaətbəxşdir. Bu bölgədə 7 min 749 hektar sahə xüsusi mülkiyyətə verilib. Həmin sahənin 120 hektarı Əbrəqunus kəndinin payına düşüb. Kənd tam orta məktəbinin müəllimi Fəxrəddin Səfərov həm də təcrübəli təsərrüfatçıdır. Ondan əkin atlasından istifadəyə münasibətini soruşduq:

– Çoxları belə düşünür ki, bu kənddə böyüyüb, kəndin hansı ərazisində hansı əkinçilik məhsulları yetişdirilməsini də yaxşı bilir. Əslində, belə deyil. Torpaq da qüvvə istəyir ki, bol məhsul yetişdirə bilsin. 30-40 il müntəzəm olaraq əkilən torpaqda isə belə qüvvə qalmayıb, onun gücü tükənib. Əkin atlasına əməl etməklə həmin torpaqlarda bol məhsul yetişdirmək mümkündür.

Rayonun Kırna, Göydərə, Xanəgah, Qazançı kəndlərində də bunu müşahidə etdik. Lakin bu yaşayış məntəqələrində maarifləndirici tədbirlər çox az hallarda, o da tədbir keçirmək xatirinə təşkil edilib.

Babək rayonunda gördüklərimiz heç də ürəkaçan olmadı. Rayonda 13 min 58 hektar sahə xüsusi mülkiyyətə verilib. Bu bölgənin torpaq mülkiyyətçiləri Naxçıvan şəhərinin meyvə-tərəvəz məhsulları ilə təminatında böyük rol oynayırlar. Xüsusi mülkiyyətə verilmiş torpaqlardan istifadə isə hər yerdə qənaətbəxş deyil. Çünki müşahidələr apardığımız Sirab, Zeynəddin, Məzrə, Vayxır, Xal-xal, Nəzərabad, Didivar, Uzunoba, Şıxmahmud, Xəlilli kəndlərinin heç birinə əkin atlasında öz əksini tapan kartoqramlar verilməyib. Bəzi yaşayış məntəqələrində əkilməyən torpaq sahələrinə də rast gəldik. Belə izah etdilər ki, əkin kampaniyası hələ davam edir. Buna, bəlkə də, inanmaq olar. Ancaq Sirab və Məmmədrzadizə kəndlərində bəzi sahələrin neçə illərdir, əkilmədiyini görəndə bu fikirdən daşındıq. Həmin sahələrin əkilmədiyinin səbəbini öyrənmək istədik. Yüz cür bəhanə gətirdilər.

Qısa müşahidələrdən sonra gəldiyimiz nəticə belə oldu ki, muxtar respublikanın torpaq mülkiyyətçiləri onlara verilmiş torpaq sahələrindən səmərəli istifadə etməyə maraqlıdırlar. Çünki torpaq həmişə kənd adamının halal qazanc mənbəyi olub. Bu gün də belədir. Ondan səmərəli istifadə edənlər həmişə ruzi-bərəkət sahibinə çevrilirlər. Bu gün münbit torpaq sahələrimizdən səmərəli istifadə etməyə dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Muxtar respublikada həcmi ilbəil genişləndirilən meliorasiya və irriqasiya tədbirləri, regiona gətirilən müasir kənd təsərrüfatı texnikaları, məhsul bolluğu yaratmaq üçün torpaq mülkiyyətçilərinə kreditlərin verilməsi dövlət qayğısının bir hissəsidir. Əkin atlaslarının hazırlanması da dövlətimizin torpaq adamlarına göstərdiyi qayğıdır. Məqsəd ondan ibarətdir ki, torpaq sahibi atlaslarda öz əksini tapan kartoqramlardan istifadə edə bilsin. Sahibi olduğu torpaqda daha çox hansı məhsulların yetişdirilməsinin vacibliyini müəyyən etsin. Və bu yolla bol məhsul istehsalına nail ola bilsin. Lakin kartoqramların bələdiyyələrə verilməməsi bu məsələnin həllini yubatmış olur. Rayon İcra hakimiyyətləri bu barədə ciddi düşünməlidirlər.

*İkinci bir məsələ ondan ibarətdir ki, torpaq adamları ilə, yuxarıda dediyimiz kimi, aparılan maarifləndirici tədbirlər çox aşağı səviyyədədir və az-az hallarda belə tədbirlər təşkil edilir. Aidiyyəti qurumların əməkdaşları tez-tez yerlərdə olmalı, torpaq mülkiyyətçiləri ilə görüşməli, onlara öz tövsiyələrini verməlidirlər. Belə tədbirlərin tədbir xatirinə keçirilməsinə son qoyulmalıdır.*

**Muxtar MƏMMƏDOV**

# 24 il Laçın həsrətində...

***Laçın işğal olunanda 17 yaşım olub. 1992-ci ilin yazında, Naxçıvanın özünün də çətin günlərdə olduğu bir vaxtda Şuşa şəhərinin işğal olunması, bundan sonra isə Laçın rayonunun düşmən tapdağı altında qalması yaddaşımda silinməz izlər buraxıb. Həmin vaxt evimizdəki ağ-qara televizorun ekranında aparıcının "Laçın düşmən nəzarətinə keçdi" deməsi ölkəmizin gələcəyi ilə bağlı bütün ağ, işıqlı düşüncələrimi, xəyallarımı, arzularımı silmiş, şüuruma yanmış evlərin tüstüsü, divarları kimi qapqara fikirlər hakim kəsilmişdi. Televizorun önündə diz çöküb sonsuz bir çarəsizlik, ümidsizliklə boğazımda düyünlənən qəhəri çətinliklə udanda, yaşlı insanların ayaqyalın, başaçıq yollara düşdüyünü, uşaqların külə dönən evlərinə necə həsrətlə və təəccüblə baxdıqlarını görəndə həyatımın 17-ci ilinin bəxş etdiyi coşqunluqla, qəzəblə and içmişdim ki, fürsət düşəndə bir ermənidən də olsa, bu vəhşiliklərin qisasını alacağam.***



İndi o hadisələrin üzərindən, necə deyərlər, "bir igidin ömrü" qədər vaxt keçib. Xalqıma vurulan, qanayan, ağrı-acı verən yaralar qaysaqlayıb, ancaq sağalmayıb. "Bütün yaralar zaman ötdükcə sağalar, zaman hər şeyin əlacıdır", – deyirlər. Ancaq bu yara elə yaralardandır ki, onu əlində cürbəcür məlhəm olan həkim yox, əlində iti, kəskin süngülü silah olan nər kimi oğullar sağalda bilər. Elə Laçın da 24 ildir ki, belə oğulların yolunu gözləyir. Bəlkə də hiss edib ki, həsrətinə, sonsuz nigarançılığına tezliklə elə o oğullar tərəfindən son qoyulacaq, tank və top mərmilərilə, raketlərlə, minalarla dağlanmış sinəsi məlhəmlənib sağalacaq. Laçın yenə də əvvəlki Laçın olacaq, dağlarının yamaclarında ona doğma olan xalqın uşaqları qaçdı-tutdu oynayacaq, torpaqları əvvəllərdə olduğu kimi yenə də əkiləcək, səhraya dönmüş çölləri gülüstanlığa çevriləcək, evləri, küçələri abadlaşacaq, çəmənlərindən qoyun-quzu mələşməsinin, ağ yapıncılı çobanın tütəyindən həzin musiqinin səsi gələcək, evlərin pəncərəsindən gələn işığın hərarəti Laçının ürəyini isidəcək, işdən evinə qayıdıb gündəlik məişət qayğılarıyla maraqlanan insanların, laçınlı balacaların şən-şaqraq səsi küçələrə yayılacaq. Bir sözlə, hər şey yoluna düşəcək. Hələliksə...

### *Tarixdən boylanan Laçın...*

...1992-ci ilin yazında Laçında – Kiçik Qafqaz dağlarının bu füsunkar təbiətə malik ərazilərində açılan güllər ömrünü yaşamamış soldu, erməni vandalizmi və vəhşiliyi 18 uşağın həyatını yarıda qoydu, 31 körpə hər iki valideynini itirib yetim, kimsəsiz qaldı, 300 nəfərdən çox insan şəhidlik zirvəsinə ucaldı, 103 nəfər əbədi əlil arabasına məhkum oldu. Millət olaraq biz isə o gün əzəli türk yurdu olan Laçını – Qarabağın dağlıq hissəsinə gedən yolun üzərindəki ən strateji ünvanı itirdik. Laçın əldən verilməsəydi, Qarabağın digər bölgələrinin işğalını gerçəkləşdirən ermənilərin bu ərazilərdə qalması mümkünsüz olacaqdı. Çünki Ermənistandan Qarabağa gedən yeganə və əsas nəqliyyat dəhlizi Laçın idi.

İndi bizi bizim Laçından 24 illik məsafə ayırır. Əvvəllər "Abdallar" adlanan, 1924-cü ildən isə şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzinə çevrilib. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılıb.

Müasir dövrümüzdən, təxminən, 200 il əvvələ dönüb baxanda görürük ki, 1828-ci il Rusiya-İran müharibəsindən sonra Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlanılıb. O zaman bu torpaqlara səfil, ac-yalavac gələn ermənilər 1905-1907 və 1918-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində türk-müsəlman əhaliyə qarşı qanlı qırğınlar törədib və nəticədə, təxminən, yarım milyon müsəlman həlak olub. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra da Qarabağı və Zəngəzuru mənimsəmək üçün ermənilərin ərazi iddiaları nəticəsində kütləvi qırğınlar davam edir. Erməni komandanı Andranik nə yolla olursa-olsun, öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa daxil olmaq, oranın erməni əhalisini Azərbaycan hökumətinə qarşı qaldırmaq, təxribatlar törətmək və bölgədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə Andranik bir neçə minlik ordu ilə Zabux kəndini keçərək Laçın istiqamətində irəliləyib. Bu məsələdən əvvəlcədən xəbər tutan bölgənin nüfuz sahiblərindən biri, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun qardaşı Sultan bəy Sultanov öz dəstəsi ilə Laçın-Zabux yolundakı bir dərədə Andranikin qoşununu mühasirəyə salıb. Burada bir gündən çox qanlı döyüşlər gedib. Bu döyüşlər zamanı Andranik, demək olar ki, bütün qüvvəsini itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapıb.

O vaxt Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək üçün Zəngəzura qoşun hissələri göndərir. Aparılan döyüşlərdə Sultan bəy Sultanovun rəhbərliyi ilə Laçın silahlı dəstələri də iştirak edir. Döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlayır. Lakin tezliklə bölgə qızıl ordu hissələri tərəfindən işğal olunur. 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla Zəngəzur bölgəsi 2 yerə bölünür. Nəticədə, Zəngəzur qəzasının 6 min 742 kvadratverstlik ərazisindən 3 min 105 kvadratversti Laçın da daxil olmaqla Azərbaycan SSR tərkibində qalır, 3 min 637 kvadratverstlik hissəsi isə Ermənistana verilir.

Hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi zaman ermənilərin Qarabağ ərazilərinə əsassız iddialarını bilən, bu əzəli Azərbaycan torpaqlarının inkişafına və tərəqqisinə çalışan ulu öndər Heydər Əliyev Laçın haqqında 1971-ci ildə dağ rayonlarının iqtisadiyyatını yüksəltmək üçün qərar qəbul etmiş, qısa zaman kəsiyində Laçının sürətli inkişafına nail olunmuşdu. İstər iqtisadi cəhətdən, istərsə də abadlıq-quruculuq sahəsində dağ rayonları sırasında o zaman Laçın birinci yerdə dururdu.

1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal olunduqdan sonra Laçın ətrafında yerləşən yaşayış məntəqələrini işğal edən erməni silahlı qüvvələri intensiv olaraq ağır artilleriya silahlarından rayon mərkəzini atəşə tutmağa başlayıblar. 1992-ci il may ayının 18-də Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni ordusu Laçını işğal edib. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə əraziyə daxil olub. Həmin dövrdə Laçından və ətraf rayonlardan çıxarılan silahlı qüvvələrin əksəriyyəti Bakıda baş verən siyasi qarşıdurmalara cəlb olunurdu. Yəni paytaxtda mövcud olan silahlı aksiyalara qoşulan ordu cəbhə bölgələrindəki mövqelərimizi nəzarətsiz qoymuşdu. Nəticədə, ardıcıl işğal edilən rayonlarımızın sırasına Laçın da daxil olub.

### *Son hadisələr torpaqlarımızın işğaldan azad ediləcəyinə inamı artırıb*

Artıq 24 ildir ki, işğalçı erməni dövləti beynəlxalq hüquq normalarına, işğal olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq Laçında qanunsuz məskunlaşma aparır. Bütün Azərbaycan xalqı kimi, laçınlılar da inanırlar ki, münaqişənin həlli ilə bağlı ölkə rəhbərinin yeritdiyi məqsədyönlü siyasət öz bəhrəsini verəcək, onlar doğma yurdlarına qayıdacaqlar. 24 ildir, məcburi köçkünlük həyatı yaşamalarına baxmayaraq, məğrurluqlarını, gələcəyə olan inamlarını itirməyən laçınlılar inanırlar ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın milli mənafeyinə uyğun həll olunacaq, işğal altındakı bütün ərazilərimiz düşmən tapdağından azad ediləcək. Aprel ayının əvvəllərində baş verən hadisələr də göstərdi ki, torpaqlarımızı işğaldan azad etmək üçün Azərbaycan Ordusunun gücü istənilən qədərdir. Son döyüşlərdə xalqımız onun da şahidi oldu ki, Qarabağ dərdi millətin bütün təbəqələrini Ali Baş Komandanın ətrafında sıx birləşdirib, heç bir qüvvənin məğlub edə bilməyəcəyi sarsılmaz milli iradə formalaşıb.

### *Azərbaycan sülh tərəfdarıdır*

Onu da qeyd edək ki, Azərbaycan münaqişənin sülh və danışıqlar yolu ilə həll edilməsinin tərəfdarıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyü ilə bağlı beynəlxalq hüququn tələblərini yerinə yetirməyəcəksə, o zaman biz Dağlıq Qarabağ probleminin həllində digər yolları arayacağıq. Məlum aprel hadisələri zamanı vasitəçi dövlətlər və beynəlxalq təşkilatlar hərbi gərginliyi aradan qaldırmaq üçün Azərbaycana israrlı xahişlər etdilər, təkliflər irəli sürdülər, yüksək səviyyəli təmsilçilər ölkəmizə səfər etdilər. Rəsmi Bakı dərhal atəşkəs elan etdi və sülh prosesinə sadiqliyini isbatlayaraq ordumuzun irəliləməsini dayandırdı. Beynəlxalq miqyasda bir daha sübut olundu ki, Ermənistan nizamlama prosesinin normal məcrada gedişinə maneə yaratmaqda israrlıdır, Azərbaycan isə Qarabağdakı hərbi status-kvonu öz xeyrinə dəyişdirmək imkanında olsa da, problemin sülh yolu ilə həllinə tərəfdardır. Mayın 16-da ölkə başçısının Avstriyaya işgüzar səfər etməsi, həmsədr ölkələrin xarici işlər nazirlərinin iştirakı ilə keçirilən Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə iştirak etməsi regionda sülhün tərəfdarı olduğumuzu bir daha sübuta yetirir. "Qarabağ münaqişəsi qısa müddətdə, Azərbaycanın ərazi bütövlüyünün qorunması prinsipi əsasında həll edilməlidir" – indi danışıqlar prosesində bu tələbdən başqa variant səslənmir. Əsas nailiyyət isə odur ki, bu görüşə ölkəmiz hərbi üstünlüyü, siyasi uğurları və diplomatik qalibiyyəti ilə qatılıb.

Ermənistanın yenidən hansısa təxribata əl atması, yaxud bəhanələrlə müzakirələri yarımçıq kəsməsi halında, şübhəsiz ki, məsuliyyəti işğalçı rejimlə yanaşı həm də vasitəçi dövlətlər və beynəlxalq təşkilatlar daşıyacaq. Belə olan təqdirdə artıq vasitəçilər rəsmi Bakıdan hərbi əməliyyatları dayandırmaq barədə növbəti dəfə xahiş edə bilməyəcəklər. Bu, Azərbaycanın – Prezident İlham Əliyevin son mövqeyidir!

### *Əks təqdirdə...*

Xatirinizdədirsə, yazımın əvvəlində "Hələliksə" yazıb sonra üç nöqtə qoymuşdum. Yazının sonunda nöqtələrin yerini doldurmaq, fikrimi tamamlayaraq demək istərdim ki, mutant canlılara bənzəyən düşmənlər Laçına torpağımızın bir parçası kimi yox, özlərinin, qondarma Qarabağ Respublikasının şah damarı kimi baxırlar. Onlar hələ də başa düşmürlər ki, yurdumuzun hər bir parçası, eləcə də Laçın millət fədailəri üçün nə anlam kəsb edir, bunun üçün onlar nəinki ermənilərin, hətta onların havadarlarının belə şah damarını kəsməyə qadir və müntəzirdirlər. Ya Azərbaycan itirilmiş torpaqlarını geri qaytarmaqla bütöv olacaq, ya da onların başı bələdan əskik olmayacaq. Onlar xalqımın, qəhrəmanlığı dastanlara mövzu olmuş millətimin hər qarış torpaq uğrunda niyə canından keçdiyini bir anlığa dərk edib anlasaydılar, heç bir zaman torpaqlara sahib ola bilməyəcəklərini hiss etsəydilər çoxdan şələ-şüləlirini yığışdırıb geri, qaraçı kimi həyat sürdükləri torpaqlara qayıdardılar. Başa düşməyəni, başa düşmək istəməyəni başa salmaq vəzifəsi isə bu gün Azərbaycan Silahlı Qüvvələrinin, hayqırtısı dağlara lərzə salan, Vətən torpağının hər qarışı uğrunda canından keçməyə hazır olan, el-obanın namusunu, şərəfini hər şeydən uca tutan igid oğullarımızın ixtiyarına verilib. Artıq, necə deyərlər, qılınc qınından çıxıb. Əminik ki, igid Azərbaycan əsgəri bu vəzifənin öhdəsindən layiqincə gələcək.

**Səbuhi HÜSEYNOV**

# Festivalın "B" və "C" qruplarının liderləri Naxçıvan şahmatçılarıdır

***"Naxçıvan-2016" Beynəlxalq Şahmat Festivalında növbəti tur oyunları keçirilib.***

Festivalın "A" qrupunda liderlərdən olan ukraynalı beynəlxalq qrossmeyster Yuriy Kuzubov hollandiyalı beynəlxalq qrossmeyster Sergei Tiviakovla qarşılaşıb. Görüş hər iki rəqibin istədiyi kimi başa çatıb və şahmatçılar xalları yarı bölüblər. Bu turda digər heç-heçələr azərbaycanlı beynəlxalq qrossmeyster Azər Mirzəyevlə ukraynalı beynəlxalq usta Sergey Pavlov, gürcü zəka sahibi İrakli Beradze ilə azərbaycanlı beynəlxalq qrossmeyster Nicat Abasov arasında da qeydə alınıb. Turnirin iki liderindən biri azərbaycanlı beynəlxalq qrossmeyster Eltac Səfərli isə bu turda rusiyalı beynəlxalq qrossmeyster Yevgeni Alekseyevlə üz-üzə gəlib və ağ-qara taxtanı qalib kimi tərk edib. Festivalın 1 nömrəli şahmatçısı, azərbaycanlı beynəlxalq qrossmeyster Şəhriyar Məmmədyarov bu turu da qələbə ilə başa vurub. O, azərbaycanlı beynəlxalq usta Misrətdin İsgəndərovu üstələməyi bacarıb. Rusiyalı beynəlxalq qrossmeyster Vladimir Burmakin isə iranlı beynəlxalq usta Omid Noroozidən üstün olub.



Naxçıvanlı zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov üçün 8-ci tur uğurlu alınıb. 16 yaşlı şahmatçımız azərbaycanlı beynəlxalq usta Nərmin Məmmədovanı məğlub edərək xallarının sayını 3,5-ə yüksəldib. Digər FİDE ustası Toğrul Həsənzadə isə belaruslu beynəlxalq qrossmeyster Vadim Malaxatko ilə qarşılaşıb və heç-heçə edib. Beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev bu turda türkiyəli FİDE ustası Cankut Emiroğlunu sınağa çəkib və ağ-qara taxtanı yarı xalla tərk edib.

Şahmat festivalının "B" qrupunda uğurla mübarizə aparan naxçıvanlı zəka sahibi Vüsal Abbasov bu turu da qələbə ilə başa vurub. O, iranlı Kian Maşmoolini məğlub edərək liderliyini qoruyub. Hazırda aktivində 7 xalı olan şahmatçımız şəriksiz liderdir.

Festivalın "C" qrupunda isə 3 zəka sahibi liderdir ki, onlardan da biri naxçıvanlı şahmatçı Sadiq Qarayevdir. 8-ci turda Fərid Orucovla xalları yarı bölən şahmatçımız aktivinə daha yarım xal yazdırıb. Onun kimi 7 xal toplayan digər iki şahmatçı Kənan Qasımov və İsmayıl Qurbanov bu turu qələbə ilə başa vurublar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nərgiz İsmayılova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 381